*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 22 aprel 2020-ci il | № 26 (2444) | Qiyməti 30 qəpik


## Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib

*Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Müşavirədə dövlət başçısı 2020-ci ilin birinci rübünün yekunlarına dair geniş nitq söyləyib. Prezident nitqində əsasən koronavirus pandemiyasından və ölkəmizdə ona qarşı aparılan təxirəsalınmaz tədbirlərdən söz açıb.*



- Bu gün biz ilin birinci rübünün yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2020-ci il uğurla başlamışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər.

Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu, bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük.

Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əlbəttə, hamımız istəyirik ki, bu karantin rejiminə tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumunda və Münxen Təhlükəsizlik Konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlərin geniş auditoriyaya çatdırıldığını da qeyd edib.

- O ki qaldı Münxen Təhlükəsizlik Konfransına, bu da dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli konfransdır. Bu dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Nəzərə alsaq ki, tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər. Bu debatlara çox böyük maraq var idi. Bu, bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub. Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Ona görə Münxen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoyub. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaq.

Ona görə hesab edirəm ki, həm münaqişə ilə bağlı, həm Cənubi Qafqazın tarixi ilə bağlı keçirilmiş bu tədbir bizim böyük uğurumuzdur. Azərbaycan xalqı mənə göndərilən on minlərlə mesajlarda, məktublarda öz dəstəyini bir daha ifadə etmişdir.

Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçular qanvermə aksiyasında iştirak edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı yaradılması təşəbbüsünə Müdafiə Nazirliyinin idarə, təşkilatları və xüsusi təyinatlı hərbi təhsil müəssisələri, həmçinin birlik, birləşmə və hərbi hissələr də qoşulub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, karantin rejiminin tələblərinə uyğun olaraq qanvermə zamanı aksiyada iştirak edənlər və həkimlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bütün zəruri tədbirlər həyata keçirilib.

Yığılan qan ehtiyatı yoxlanıldıqdan və sertifikatlaşdırıldıqdan sonra istifadə olunması məqsədilə Respublika Talassemiya Mərkəzinə (Milli Hematologiya və Transfuziologiya Mərkəzi) təhvil veriləcək.



## Minnətdarlıq

# "Biz birlikdə güclüyük!"

Dünyanı cənginə alan koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması istiqamətində gördüyü mühüm işlərə görə bir əsgər atası olaraq Prezident, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkür məktubu ünvanlamağı özümə vətəndaşlıq borcu bildim.

Bu gün xalqımızın mənəvi dəyərləri möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən ən yüksək səviyyədə qorunur və davam etdirilir. Dövlət başçısının apardığı məqsədyönlü siyasət, müstəqil respublikamızın iqtisadi potensialının, müdafiə qüdrətinin artması, əhalinin maddi rifahının gündən-günə yaxşılaşması deməyə əsas verir ki, ordu quruculuğu prosesi də prioritet məsələ kimi daim diqqətdədir. Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu ölkədəki ordu quruculuğu işində də özünü qabarıq göstərməkdədir. Bu amil dövlət başçımızın diqqət və qayğısının, tələb və tövsiyələrinin nəticəsidir. Ordu quruculuğu işində aparılan islahatlar, vaxtında və yüksək səviyyədə həyata keçirilən tədbirlər bu vacib qurumda zəruri irəliləyişlərin əldə olunması üçün stimul rolunu oynayır. Bu gün mən hər bir soydaşımız kimi dünyanın aparıcı silahlı qüvvələri sırasında layiqli yer tutan Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçirirəm.

Bu gün mən özümü xoşbəxt insan saya bilərəm. Xoşbəxtəm ona görə ki, vaxtilə Vətənin müdafiəsində dayananların sırasında mən də olmuşam. Şəxsən ulu öndər Heydər Əliyevin xeyir-duasını, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla görüşü həyatımın ən xoş anı kimi xatırlayıram. Xoşbəxtəm ona görə ki, Vətənini, millətini, torpağını sevən oğulların sırasına qatılan bir oğul atasıyam. Fəxr edirəm ki, Vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət edən, Vətənin müdafiəsində ləyaqətlə dayanan, düşmənə göz dağı olan, işğal altındakı torpaqlarımızın azad olunması uğrunda əmək sərf edən, içdiyi anda sadiqlik nümayiş etdirən bir əsgər atasıyam.

Azərbaycan Ordusunun dünəni ilə bu gününü müqayisə edəndə bir vətəndaş, bir valideyn kimi sevinməyə bilmərəm. Yaradılan şərait, əsgərlərə göstərilən diqqət və qayğı bir valideyn kimi məni həm sevindirir, həm də kövrəldir. Fürsətdən istifadə edib, Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə yaradılan şəraitə görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

İnanırıq ki, yeni növ koronavirus pandemiyasının ölkəmizə ayaq açdığı ilk dövrdən ölkə başçısı tərəfindən görülən qabaqlayıcı tədbirlər və verilən həlledici qərarlar öz müsbət təsirini göstərəcək və görülən operativ tədbirlər nəticəsində ölkəmizdə epidemiyanın yayılmasının qarşısı alınacaq. Tezliklə "Biz birlikdə güclüyük!" deyərək xalqımızdan ilham alan ordumuzun şəxsi heyəti, səngərlərdə sinəsini sipər etmiş, Vətən keşiyində dayanan igid oğullarımız Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğalda qalan torpaqlarımızı azad edəcəklər və üçrəngli Azərbaycan bayrağını müqəddəs məkanlarda dalğalandıracaqlar.

**Hörmətlə,**

**Zaur RƏHMƏTOV,**
**Masallı rayon Boradigah qəsəbə sakini**

# Naxçıvanda ötən həftə keçirilən hərbi təlimlər erməniləri təşvişə salıb

*Ötən həftə Naxçıvan Qarnizonu Qoşunlarının keçirdiyi komanda-qərargah təlimi işğalçı Ermənistan ictimaiyyətini təşvişə salıb.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, ermənilərin "razm.info", "hayknews.com", "hayeli.am" və "7or.am" portallarında bununla bağlı yayımlanan məqalələrdə Naxçıvanda keçirilən həmin təlimin Ermənistan ictimaiyyətində narahatlıq yaratdığı bildirilib. Vurğulanıb ki, mürəkkəb relyefli ərazidə tank və ağır artilleriya bölmələrinin, zenit qurğularının praktik atışları, şərti düşmən mövqelərinə aviazərbələrin endirilməsi təlimin əhəmiyyətini təsdiq edən mühüm faktlardır. Keçirilən təlimlərin intensivliyinin Əlahiddə Ümumqoşun Orduya yüksək döyüş təcrübəsi qazandırması işğalçı ölkə ictimaiyyətində ümidsizliklə qarşılanıb.

Fotoların yer aldığı məqalələrdə 2020-ci il aprelin 4-də Naxçıvanda artilleriya bölmələri ilə keçirilən gecə şəraitində döyüş atışlı taktiki təlimlərdən də bəhs olunub. Vurğulanıb ki, keçirilən təlimlərdə yaylım atəşli reaktiv sistemlərdən istifadə olunması, gecə döyüşləri və taktiki yeniliklər xüsusilə diqqətçəkicidir. Bu, dünyanın qabaqcıl ordularına xas olan yeniliklərdir.

# Azərbaycan HHM bölmələrində taktiki-xüsusi məşqlər keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına əsasən, Hava Hücumundan Müdafiə bölmələri hazırlıq məşqlərinə başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, S-300 "Favorit" zenit-raket komplekslərinin divizionları normativlərə uyğun olaraq marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra edirlər.

Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi və şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetirirlər.

* * *

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlim-məşqləri keçirilib.

S-125 zenit-raket komplekslərinin döyüş heyətləri şərti düşmən hədəflərini aşkarlayaraq praktiki atışlarla onları məhv edib.

Şəxsi heyətin bacarıqlarının təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə keçirilən məşqlərdə qarşıya qoyulan tapşırıqlar yerinə yetirilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 aprel 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Təlim*

# “Döyüş hazırlığımızı artırırıq”



Ön xətdə yerləşən hərbi hissələrimizdən birinin artilleriya divizionundayıq. İlk öncə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Afiq Abbasovla söhbətləşirik. O, "Ən yaxşı top komandiri" müsabiqəsində dəfələrlə birinci yeri tutub və komandanlıq tərəfindən fəxri fərmanla təltif edilib. Çavuş Afiq Abbasov bu ixtisası seçməsində başlıca rol oynayan amillərdən danışdı. "Məktəbdə oxuyarkən tarix dərslərində tanınmış artilleriya generallarımız Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski haqqında əldə etdiyim məlumatlar topçu ixtisasını seçməyimdə açar rolu oynadı. Artilleriya ixtisasına yiyələnməyi qarşıma məqsəd qoydum və ata-babalarımızın adına layiqli topçu olacağıma söz verdim. Hərbi xidmətimi başa vurduqdan sonra sənədlərimi aidiyyəti quruma təqdim etdim. İmtahanlardan uğurla keçdim. Kurs müddətində də hərbi bilikləri dərindən mənimsəyərək praktiki və nəzəri vərdişlərimi artırdım, bir sözlə, özümü təkmilləşdirdim. Müəllimlərimin, komandirlərimin gərgin əməyi hədər yerə getmədi. Keçirilən "Ən yaxşı top komandiri" müsabiqəsində dəfələrlə iştirak etmişəm, nailiyyətlər qazanmışam. Qazandığım uğurlara görə müəllim və komandirlərimə borcluyam. Məhz onlardan əxz etdiyim bilikləri bu gün tabeliyimdə olan şəxsi heyətə həvəslə öyrədirəm. Tez-tez çıxışlarda olur, təlimlərdə iştirak edir, döyüş vərdişlərimizi təkmilləşdiririk. Keçirilən təlimlər şəxsi heyətə mübarizə əzmi və qələbəyə inam hissi aşılayır. Təlim meydanında daim yüksək nəticələr göstərən bölməmiz düşmənin üzərinə mərmilər yağdıracağı günü səbirsizliklə gözləyir. Artilleriya ixtisası haqqında az-çox məlumata malik olan şəxs bilir ki, bölmədə hər proses zəncirvarilik prinsipi üzərində qurulur. Təcrübəli komandirlərimiz tərəfindən təşkil olunan məşqlərdə bölməmizin topçularının hərbi biliyi və birliyi sınaqdan keçirilir".

O, həmçinin qeyd etdi ki, təcrübəli komandirləri tərəfindən keçirilən məşğələlər sayəsində döyüş hazırlığını artıran şəxsi heyət təlimlərdə yüksək nəticələr göstərir.

Şəxsi heyətin dərs prosesində iştirak etdik. "Döyüşə" və "Səfərə" komandalarını heyət normativə uyğun icra edirdi. Hesablayıcı, tuşlayıcı və digər heyət üzvləri vəzifələrinin öhdəsindən layiqincə gəlirdilər.

Dərs başa çatdıqdan sonra heyətlə tanış olduq. Əsgər İlkin Quluzadə əsgər və komandir münasibətlərinin önəmindən və yiyələndiyi ixtisasın əhəmiyyətindən danışdı. "Belə bir deyim var - əsgər komandirinin güzgüsüdür. Komandirlərimiz bizimlə istər xidmətlə bağlı, istər xidmətdən kənar hər zaman qayğılarımızla maraqlanır, çətinlik çəkdiyimiz anlarda bizə köməklik göstərirlər. Göstərilən diqqət və qayğı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə həll edilməsində mühüm stimulverici amillərdəndir. Hər bir əsgər komandirini özünə doğma və etibarlı bilməli, verilən tapşırıqlara ciddi əməl etməlidir. Həmçinin hər birimiz nizam-intizamlı olmağa, hərbi biliklərimizi artırmağa borcluyuq. Ən böyük arzum yurdumuzu bütöv görmək, işğal altında olan torpaqlarımızın azad olunacağı döyüşlərdə iştirak etməkdir".

Əsgər Xəyyam Osmanov xidmət etdiyi bölmənin gündəlik fəaliyyəti barədə bizi məlumatlandırdı: "Dərslərimiz təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq təşkil olunur. Praktiki məşğələlərimiz öncədən təyin edilmiş açıq ərazidə, sinif dərslərimiz sinif otaqlarında keçirilir. Bundan başqa, bizə təhkim olunan silah yüksək fiziki güc tələb etdiyindən komandirlərimiz fiziki göstəricilərimizi də diqqət mərkəzində saxlayırlar. İctimai-siyasi hazırlıq dərslərimiz mənəvi-psixoloji hazırlığımıza müsbət təsir göstərir. Daim hərbi biliklərimizi artırır, özümüzü bir döyüşçü kimi təkmilləşdirir, öz üzərimizdə çalışırıq. Komandirlərimizin bizə olan diqqəti yüksək səviyyədədir. Burada yaradılan sosial-məişət şəraiti arzuediləndir. Bu gün ordu sıralarında xidmət edən hər kəs Vətənə müqəddəs borcunu ödəyir. Xalqımız da əmin olsun ki, Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, əsgər adını uca tutacaq, millətimizə daim başucalığı gətirəcəyik".

Döyüş bacarıqlarını əməli fəaliyyətlərində göstərən əsgərlər İbrahim Cəfərov və Eminağa Hacatov da Vətənə, xalqa sədaqətlə xidmət etməyin verdiyi qürurdan, müqəddəs yolun yolçusu olmaqlarından danışdılar. Sonda gənc Vətən müdafiəçiləri qeyd etdilər ki, güclü ordunun əsgəri adını daşımaq fəxrdir. Həqiqətən də, bu gün ordu sıralarında xidmət edən hər bir kəs yaxşı bilir ki, güclü ordunun adını daşımaq məsuliyyəti olduğu qədər də fəxarətlidir.

**Baş leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu", foto Coşqun CƏFƏROVUNDUR**

# Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən komanda-qərargah təlimi başa çatıb

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə keçirilən komanda-qərargah təlimi başa çatıb.*

Təlimin gedişində birləşmə və hissələrin səfərbərlik ehtiyatları ilə komplektləşdirilməsi üçün şəxsi heyətin qəbulu məntəqələri açılaraq xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktiki qəbulu həyata keçirilib.

Mobil, stasionar və dayaq rabitə qovşaqlarının, retranslyasiya məntəqələrinin kompleks tətbiqi ilə ordunun geniş şaxəli səhra rabitə sistemi qurularaq idarəetmə məntəqələri arasında bütün növ informasiya mübadiləsi təmin edilib.

Mürəkkəb relyefli qarlı ərazidə ayrı-ayrı istiqamətlərdə düzünə tuşlamaya çıxarılan tank bölmələrinin və birinci eşelondakı zenit qurğularının atışı ilə düşmənə uzaq hüdudlarda atəş zərbələri endirilib.

Gecə ərzində bölmələrimiz şərti düşmənin hücumlarını dəf etsə də, müəyyən istiqamətlərdə bölük dayaq məntəqələri dərinliyinə irəliləmə imkanı əldə edən düşmənin məhv edilməsi üçün raket-artilleriya və hava hücumundan müdafiə bölmələrinin dəstəyi ilə mexanikləşdirilmiş və motoatıcı bölmələr tərkibindən yaradılmış taktiki qruplar əks-həmləyə keçərək itirilmiş vəziyyəti əlverişli hüdudlarda bərpa edib.

Zirehli texnikaları tank əleyhinə bölmələrimiz tərəfindən məhv edilən şərti düşmənin nizamlı şəkildə geri çəkilməsinə imkan verilmədən ərazinin hakim yüksəkliklərinə taktiki desant endirilib.

Aviasiya bölmələri tərəfindən artilleriya divizionunun atəş mövqeyinə və komanda məntəqələrinin açılma rayonuna avia zərbələr praktiki uçuşla təqlid edilib. Hava hücumundan müdafiə bölmələri aviatexnikaların və pilotsuz uçuş aparatlarının uçuşlarının aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə praktiki fəaliyyət göstərib, daşınan zenit-raket komplekslərindən atışlar icra ediblər.

Şərti düşmənin hücumlarını digər istiqamətlərdə dəf edən bölmələrə atəş dəstəyinin gücləndirilməsi üçün ağır yükdaşıma vasitələri ilə tank bölmələrinin bir istiqamətdən digərinə daşınması həyata keçirilib.

Ərazidə açılmış səyyar tibb qrupunun peşəkar tibb personalı döyüş meydanında yaralılara ilkin tibbi yardım göstərərək təxliyəsini təşkil ediblər.

Komanda-qərargah təliminin sonuncu mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində birləşmə və hissələrin fəaliyyəti, qərarların və hesablamaların reallığı kompüterlər üzərində keçirilən təlimdə qiymətləndirilib.

Təlimin yekunu keçirilən zaman bildirilib ki, təlimdə məhdudgörmə şəraitində tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkili, silah və döyüş texnikasının gecə vaxtı tətbiqi uğurla həyata keçirilib.

**Baş leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# PUA heyətləri təlim-məşq uçuşları yerinə yetirir



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, müxtəlif təyinatlı pilotsuz uçuş aparatları (PUA) heyətləri təlim-məşq uçuşları yerinə yetirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim prosesində heyətlər əməliyyat-taktiki biliklərini artırır, ən müasir trenajorlarda praktiki vərdişlərini təkmilləşdirirlər.

PUA heyətləri şərti düşmənin müdafiəsinin dərinliyindəki hədəfləri vaxtında və dəqiq aşkar etməklə qarşıya qoyulan tapşırıqları icra edirlər.

# Artilleriya bölmələri döyüş atışları icra edir

*Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonlarında artilleriya bölmələrinin döyüş atışlı məşqləri keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hazırlıq məşqlərinin məqsədi artilleriya bölmələrinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi və onların döyüş uzlaşmasının səviyyəsinin artırılması, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması, digər qoşun növləri ilə qarşılıqlı fəaliyyətin təşkilidir.



Raket və artilleriya qoşunlarının müxtəlif bölmələri döyüş atışları icra edir.

AZƏRBAYCAN ORDUSU

Ümummilli lider Heydər ƏLİYEV:

# Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır

*Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yarandığı vaxtdan 49 il keçir. Yarım əsrə yaxındır ki, ömrünü hərbçi peşəsinə bağlayan Azərbaycanın vətənpərvər oğulları bu tədris ocağına üz tuturlar. Ordumuz üçün zabit kadrlarının hazırlanmasında önəmli yer tutan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazılıb.*

Dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi addım atıldı. 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Nəticədə hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu oldu. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər. Bu gün ulu öndər Heydər Əliyevin yaratdığı Hərbi liseydə yüzlərlə gənc hərbi təhsil almaqda davam edir. Azərbaycanda hakimiyyətdə olduğu dövrlərdə ümummilli lider Heydər Əliyevi düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi olub. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşıb və həmişə onların xidmətlərini yüksək qiymətləndirib.

Əsası 1971-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Silahlı Qüvvələr üçün zabit kadrlarının hazırlanmasında əvəzsiz xidmətləri var. Məhz buna görə də 1998 və 2003-cü illərdə ölkə başçısının müvafiq fərmanları ilə Hərbi liseyin 25 və 30 illik yubileyləri dövlət səviyyəsində böyük təntənə ilə qeyd olundu. 2003-cü il aprelin 21-də Ulu Öndər indiki Heydər Əliyev adına sarayda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə hərbi təhsil ocağına olan sevgi və məhəbbətini bu sözlərlə ifadə etmişdir: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax bu cür baxacağam."

Hər birimiz Ulu Öndəri daim minnətdarlıq hissi ilə yad edirik. Bu gün həm Silahlı Qüvvələrin, həm də Hərbi liseyin şəxsi heyəti ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısını hər addımda hiss edir.

2018-2019-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma və əsaslı təmir işləri aparıldı. Aparılan yenidənqurma işlərindən sonra Hərbi liseydə kursantların təhsil alması üçün hərtərəfli şərait yaradıldı. Ötən il iyunun 26-da - Silahlı Qüvvələr Günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yenidənqurma və əsaslı təmirdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə getdi, görülən işlərlə yaxından tanış oldu.

Rəsmi tədbirdə Ali Baş Komandan İlham Əliyev Hərbi liseyin təməlinin Ümummilli Lider tərəfindən qoyulduğunu diqqətə çatdırdı: "Bilirsiniz ki, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbi kadrlar lazım olacaq və belə də oldu. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclülər sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir. Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir."



Yenidənqurma və əsaslı təmirdən sonra Hərbi liseydə təlim və tədris prosesi günü-gündən təkmilləşir, kursantların bilik səviyyəsi artır. Tam inamla deyə bilərik ki, ordumuzun gələcək zabitlərinin təhsil aldığı Hərbi liseyin maddi-texniki tədris bazası günümüzün müasir tələbləri səviyyəsindədir. Təhsil ocağında Azərbaycan Respublikası Silahlı Qüvvələrinə peşəkar, vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılıb. Pedaqoji kollektiv yaradılan şəraitdən lazımınca bəhrələnərək kursantlara hərbi bilikləri daha da keyfiyyətlə aşılayır. Hərbi liseydə təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində işlər müntəzəm olaraq davam etdirilir. Tədris bazası zənginləşdikcə dərsin keyfiyyəti də artır, kursantların hazırlıq səviyyəsi də yüksəlir. Bütün bunlar isə gələcək uğurlardan, qüdrətli və güclü ordudan xəbər verir.

Bu günə qədər Hərbi liseyi minlərlə gənc bitirərək keçmiş İttifaqın müxtəlif şəhərlərində ali hərbi məktəblərdə oxuyub və xidmət ediblər. Erməni qəsbkarları Qarabağa, Azərbaycan torpaqlarına hücum çəkəndə onlar Vətənimizin harayına səs verərək geri dönüblər. Hərbi liseyin məzunları həm torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə, həm də ordu quruculuğu prosesində fəal iştirak ediblər. Onlar daim Azərbaycan Respublikasına sədaqətlə xidmət edərək, Vətən torpağı uğrunda cəsarətlə vuruşub, böyük hünər və qəhrəmanlıqlar göstəriblər.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməri dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi, dövlətçiliyi naminə canlarını belə əsirgəməyiblər. Onlardan 10 nəfərdən çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb, yüzlərlə məzun müxtəlif orden və medallarla təltif olunub. Bu qəhrəmanların adları Azərbaycanın hərbi tarixinə əbədi həkk olunub. Böyük hörmət və ehtiramla yad etdiyimiz şəhid Milli qəhrəmanlarımız Rasim İbrahimovun, Əfqan Hüseynovun, Elşad Əhədovun, Mətləb Quliyevin, Eldar Məmmədovun, Çingiz Babayevin, Cəlil Səfərovun və başqalarının adı o cəsur oğulların sırasındadır. Qeyd edək ki, təhsil ocağında tez-tez Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunan müxtəlif turnirlər keçirilir, onların xatirəsi həmişə əziz tutulur.

2016-cı ilin Aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq və igidlik göstərənlərin arasında Hərbi liseyin məzunları olan zabitlər də var. Onlar komandir kimi üzərlərinə düşən tapşırıqları bacarıqla, peşəkarlıqla yerinə yetirərək cəsarət göstəriblər. İgidlik və hünərləri ilə adlarını qəhrəmanlıq tariximizə yazıblar. Yazıblar ki, sonrakı nəsillər qəhrəmanlığı, igidliyi onlardan öyrənsinlər.

Ali Baş Komandan İlham Əliyevin müvafiq fərmanı ilə 2016-cı ilin Aprel döyüşləri zamanı göstərdikləri igidliklərə görə məktəbin məzunu olan polkovnik-leytenant Murad Mirzəyevə (ölümündən sonra) və polkovnik Şükür Həmidova Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib.

Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu gün də Azərbaycan Ordusu üçün peşəkar hərbi kadrların hazırlanmasında müstəsna xidmətlər göstərərək fəaliyyətini uğurla davam etdirməkdədir. Hazırda Silahlı Qüvvələrimizin elə bir sahəsi yoxdur ki, orada Hərbi liseyin məzunları xidmət etməsin. Eyni zamanda, respublikamızın bütün güc strukturlarında Hərbi liseyin məzunları zabit kimi Vətən qarşısında öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Böyük inamla demək olar ki, Silahlı Qüvvələrimizin gələcək təcrübəli zabitləri, generalları və admiralları işıqlı sabahlara hamımızın böyük rəğbət bəslədiyimiz bu təhsil ocağından pərvazlanacaqlar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi təhsil sistemi günü-gündən təkmilləşir, müasirləşir, yenilənir və durmadan inkişaf edir. Hərbi liseydə təhsil sisteminin təkmilləşdirilməsi üçün aparılan uğurlu islahatlar müsbət nəticələr verməkdədir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi məşqlər keçirilir



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Mühəndis Qoşunlarının hissə və bölmələri ilə taktiki-xüsusi məşqlər başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, xüsusi olaraq hazırlanmış mühəndis şəhərciyində qoşunlara mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi üzrə şəxsi heyətlə məşqlər keçirilir.

Çətin relyefli ərazidə şərti düşmənin hazırladığı mühəndis maneələrindən piyada və döyüş texnikası üçün keçidlər açılır, kolon yolları hazırlanır, su maneələri üzərində körpülər və bərələr qurulur.

Bundan əlavə, hərbi mühəndislər ərazinin kəşfini aparır, tabel və əlaltı vasitələrdən istifadə etməklə partlayan və partlamayan mühəndis maneələri qurur, eləcə də fortifikasiya qurğularını hazırlayır.

# PDM ekipajları döyüş vərdişlərini təkmilləşdirir



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, piyadaların döyüş maşınları (PDM) ekipajları döyüş bacarıqlarını təkmilləşdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim məşqlərinin əsas məqsədi zirehli texnika ekipajlarının döyüş hazırlığının artırılması, PDM-lərin çətin keçilən ərazilərdə idarə edilməsi və real döyüş şəraitində tətbiqi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

# Hərbi qulluqçuların ünvanlı yardımları davam edir

*Azərbaycanın yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə apardığı bu günlərdə ölkə rəhbərliyi tərəfindən xalqın sosial təminatı və sağlamlığı ön planda tutulur. Prezident İlham Əliyevin gərgin və məsuliyyətli günlərdə xalqa çağırışında dediyi "Biz birlikdə güclüyük!" şüarı hər kəsin həyat tərzinə çevrilib. Ölkə rəhbərliyinin pandemiyaya qarşı mübarizə çərçivəsində həyata keçirdiyi sistemli tədbirlər, az təminatlı ailələrə yardımların göstərilməsi, Azərbaycan Prezidentinin sərəncamı ilə ayrılan vəsait hesabına işsizlərə 190 manat birdəfəlik ödəmənin verilməsi bir daha sübut edir ki, dövlətimiz xalqın sağlamlığını, təhlükəsizliyini, rahatlığını və rifahını daim ön planda tutur.*



Dünyaya meydan oxuyan koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar ölkədə tətbiq olunan xüsusi karantin rejimini nəzərə alaraq Azərbaycan Ordusunda da bir çox tədbirlər həyata keçirilir. Bu çətin günlərdə hərbi qulluqçular xalqa dəstəyini əsirgəmir. "Biz sizin üçün xidmətdəyik, siz də bizim üçün evdə qalın!" deyərək həm xidmətlərini davam etdirir, həm də aztəminatlı ailələrə ünvanlı yardımlar göstərirlər.

Danılmaz faktdır ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi, eləcə də Müdafiə Nazirliyi tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Ordu rəhbərliyi ölkəmizin, eləcə də cəmiyyətin koronavirusla mübarizə apardığı bu günlərdə də şəhid ailələrini, ərazi bütövlüyümüz uğrunda şücaət göstərmiş müharibə veteranlarını unutmur, öz qayğısını onlardan əsirgəmir.

Müdafiə nazirinin göstərişinə əsasən Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında qablaşdırılan zəruri ərzaq məhsulları şəhidlərimizin ailələrinə, müharibə veteranlarına və əlillərə təqdim olunub.

Yardım kompaniyasında iştirak edən polkovnik-leytenant Kamran Nəsibov bu kateqoriyadan olan şəxslərin müəyyən edilərək onlara yardım edilməsi istiqamətində işlərin davam etdirildiyini bildirdi. "Dünyada qlobal probləmə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində Azərbaycan Ordusunda da sistemli tədbirlər həyata keçirilir. Müdafiə nazirinin əmri ilə xəstəliklərin profilaktikası və hərbi qulluqçuların sağlamlığının qorunub saxlanılması məqsədilə yoluxucu xəstəliklərə qarşı profilaktik və ekspidemik tədbirlər görülür. Hərbi hissələrə normadan əlavə dərman preparatları, profilaktiki və dezinfeksiyaedici vasitələr, o cümlədən qoruyucu maskalar çatdırılıb və onların ehtiyatı mövcuddur. Şəxsi heyət arasında müvafiq maarifləndirmə işləri təşkil edilir və hərbi qulluqçuların gündəlik termometriyası aparılır.

Şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində prioritetdir. Bu, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-mənəvi yoldur. Hazırda bu siyasətin Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində indiyə qədər bu istiqamətdə bir çox işlər görülüb. Bugünkü tədbirimiz də şəhid adının əbədiləşdirilməsi, onların əziz xatirəsinin daim yad edilməsi istiqamətində görülən işlərdəndir. Çox qürurluyam ki, belə bir xeyirxah əməldə iştirakçıyam. Bir daha vurğulamaq istəyirəm ki, şəhidlərimizin xatirəsi bizim üçün hər zaman doğmadır, əzizdir və dəyərlidir."

Ünvanlı yardım alan ailələr şəhid ailələrinə, əlillərə, veteranlara dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışaraq, ölkə rəhbərinə və Müdafiə nazirinə öz dərin minnətdarlıqlarını bildirdilər. Onlar qeyd etdilər ki, "Biz birlikdə güclüyük!" şüarı ilə səfərbər olan cəmiyyətimiz əzmkarlıq, iradə və fədakarlıq nümayiş etdirərək bu qlobal bəlanın da öhdəsindən şərəflə gələcək.

Şəhid Müşfiq Orucovun atası Arif kişi minnətdarlığını bildirdi. "Bir şəhid atası kimi özümə fəxr bilirəm ki, oğlum torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhid olub. Dövlətimizdən çox razıyıq ki, biz şəhid ailələrinə həmişə qayğı göstərir. Sağ olsun ölkə və ordu rəhbərliyi ki, xüsusi karantin günlərində də bizi yaddan çıxarmırlar. Bu onun sübutudur ki, dövlətimiz hər bir vətəndaşının qayğısına qalır. Dövlətimizin qoyduğu tələbləri yerinə yetirərək evdə qalmaq, özümüzün və yaxınlarımızın sağlamlığını qorumaq da biz vətəndaşların borcudur."

Öz qəhrəmanlığı ilə şəhidlik zirvəsinə yüksələn Sarvan Mehralıyevin anası Xatirə ana da övladının şəhidliyindən qürurlandığını, eyni zamanda, dövlətin qayğısından razılığını bildirdi. Yardım payı üçün Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını çatdırdı. "Cənab Prezident, sizin şəhid ailələrinə göstərdiyiniz qayğını biz daim öz üzərimizdə hiss edirik. Şəhid ailələrinə verilən mənzillərdən



bizim ailəmiz də alıb. Bu, Vətən uğrunda canından keçən övladlarımıza, bizə olan böyük kömək və dayaqdır. Həmçinin Müdafiə naziri başda olmaqla, övladımın silahdaşlarına da minnətdarlığımı bildirirəm ki, bizi ziyarət edərək, sovqat gətiriblər. Bu xeyirxah əməldə zəhməti olan hər kəsə çox sağ olun deyirəm. Sizin hər birinizə cansağlığı, şərəfli xidmətinizdə uğurlar arzulayıram. Onu da demək istəyirəm ki, koronavirusla mübarizə ilə əlaqədar dövlətimizin qoyduğu qanunlara əməl edərək evdə qalır, sağlamlığımızı qoruyuruq."

Ünvanlı yardım alan digər müharibə veteranları, əlillər də göstərilən diqqət və qayğıya görə ən xoş arzularını söylədilər.

Ölkə başçısından hər zaman razı qaldıqlarını deyən veteranlar belə bir təşəbbüs yerinə yetirdiyi üçün Müdafiə Nazirliyinin rəhbərliyinə də xüsusi minnətdarlıqlarını bildirdilər. Ölkəmizdə aparılan uğurlu ordu quruculuğu siyasəti nəticəsində son illər Azərbaycan Ordusunun güc və qüdrətinin dəfələrlə artdığına şahid olduqlarını vurğuladılar. "Bu gün ordumuzun maddi-texniki bazası, təminatı o qədər güclüdür ki, xüsusi karantin rejimində həmin bazanın hesabına bizim kimi yüzlərlə ailəyə yardım aparırlar. Bu çox təqdirəlayiq və sevindirici haldır. Həm də ölkə rəhbərliyinin, Müdafiə nazirinin veteranlara, müharibə əlillərinə, şəhid ailələrinə hərtərəfli diqqət və qayğısının bir daha təzahürüdür. Bu addım həm də ordu-xalq birliyinin təzahürüdür. Dövlətimizlə, ordumuzla hər birimiz qürur duyuruq", - deyən veteranlar minnətdarlıqlarını bildirdilər.

Tarixən xalqımızı başqa millətlərdən fərqləndirən başlıca xüsusiyyətlərdən biri də nəcib adətlərimiz, xeyirxah əməllərimizdir. Müdafiə nazirinin göstərişi ilə həyata keçirilən növbəti yardım aksiyası da bu qəbildəndir. Hazırkı xüsusi karantin rejimində ölkəmizdə geniş şəkildə aparılan belə xeyirxah işlər birliyimizin və həmrəyliyimizin ifadəsidir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılmasına başlanılıb

*"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən birlik, birləşmə və hissələrdə müvafiq tədbirlər həyata keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 20-dən etibarən Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılmasına başlanıb.

Müdafiə nazirinin tapşırığına əsasən, ehtiyata buraxılan hərbi qulluqçular Müdafiə Nazirliyinin nəqliyyat vasitələri ilə mütəşəkkil qaydada müəyyən edilmiş marşrutlar üzrə şəhər və rayonlara çatdırılır.

*Bizim şərh*

# Paşinyana veriləcək yeganə sual



Rusiya istehsalı olan Su-35 və MiQ-35 döyüş təyyarələrinin alınmasında Azərbaycan tərəfinin maraqlı olduğu barədə yayılan rəsmi məlumat Ermənistanın hərbi-siyasi rəhbərliyi üçün "soyuq duş" effekti yaratdı. Paşinyan hökumətinin qəpik-quruşu hesabına dolanan və onun nəzarətində olan erməni mətbuatı Ermənistanın "yeni silahlar" hazırlaması, hətta "tam erməni istehsalı olan super silah"ın istehsalına başlanması barədə məlumatlar yaymağa başladı. Gündə bir mövzu ilə xalqının başını qatmaq üçün yollar arayan N.Paşinyan bu dəfə Ermənistanın hərbi aviasiya sahəsində Azərbaycandan "xeyli irəlidə" olması barədə növbəti əfsanə uydurdu.

Özünün "Facebook" səhifəsində video paylaşaraq ona "Ermənistan hərbi aviasiyası tarixdə ilk dəfə səs sürətini aşaraq uçmağa nail oldu" şərhini yazan N.Paşinyan hakimiyyətə gələnədək etdiyi populist çıxışları bu gün də davam etdirir.

Əslində, burada yeni heç nə yoxdur. Səs sürətini aşaraq uçan hərbi aviasiya uzun illərdir mövcuddur. Amma bu dəfə Ermənistanın baş nazirinin ucuz piar sevdası nəinki mütəxəssisləri, hətta sadə insanları belə təəccübləndirdi. Əvvəla, təqdim edilən videonun kobud qüsurlarla montaj olunduğu aydın görünür. Çəkilişlərin bir hissəsi real təlim uçuşlarını əks etdirsə də, digər qisminin uçuş simulyatorunda yerinə yetirildiyi açıq-aydın sezilir. Su-30 SM döyüş təyyarələrinin uçuş xüsusiyyətlərindən azacıq anlayışı olanlar bilirlər ki, təlim-döyüş tapşırıqlarını icra etmək üçün havaya qalxan bu tip aviasiya vasitəsi "böyük Ermənistanın bütün ərazisini örtür". O ki qaldı səsdən sürətli sürət həddini aşmağa, bu manevri icra etmək üçün Ermənistan ərazisi yetərli deyil. Bu tapşırığı yerinə yetirmək istəyən "erməni as pilotlar" qonşu dövlətlər olan İran, Rusiya, Gürcüstan, Türkiyə və ya Azərbaycanın hava məkanını mütləq pozmalıdır. İndi qalır sadəcə bir suala cavab tapmaq: "Səsdən yüksək sürətlə uçmağa nail olan erməni pilotu hara uçub?".

**İsa İSMAYILOV,**
**ehtiyatda olan**
**polkovnik-leytenant**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)**

**Mövzu:** 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizədə Azərbaycan xalqının rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən II Dünya müharibəsi haqqında tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.**

**2. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

**3. Azərbaycan II Dünya müharibəsi illərində.**

### *Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması*

9 May - faşizm üzərində qələbə günüdür. Ümummilli liderimiz Heydər Əliyev bu qələbəni belə qiymətləndirmişdir: "Zaman keçdikcə, illər ötdükcə, bu qələbənin mənası, mahiyyət və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır".

1933-cü ildə Almaniyada, Adolf Hitler başda olmaqla, faşistlər hakimiyyətə gəldilər. Həmin dövrdən öz hərbi qüdrətini artıraraq Avropanın işğalına hazırlaşan Almaniya 1939-cu il sentyabrın 1-də Polşaya hücum etdi. Beləliklə, II Dünya müharibəsi başlandı. Qısa müddət ərzində Avropanın əksər dövlətlərini işğal edən və ya öz təsiri altına alan Almaniya keçmiş SSRİ-yə hücum ərəfəsində böyük hərbi potensiala malik idi.

Almaniya 1941-ci il iyunun 22-də qəflətən SSRİ üzərinə hücum etdi. 190 alman diviziyası SSRİ-nin bütünlükdə qərb sərhədləri boyunca hərəkətə gəldi. SSRİ-də yaşayan bütün xalqların, o cümlədən Azərbaycan xalqının həyatında ağır iz buraxmış Böyük Vətən müharibəsi başlandı. Müharibə başlanan gün Bakı şəhərində izdihamlı mitinq keçirildi. Mitinqlərdən sonra insanlar hərbi komissarlıqlara gedir, ordu sıralarına yazılırdılar. Müharibənin ilk 3 günündə Azərbaycandan 25.984 nəfər könüllü müharibəyə yola düşdü. Artıq 4 iyul 1941-ci il tarixdə Bakı şəhərində 75 min, Naxçıvan Muxtar Respublikasında 7 min, Gəncədə 10 min azərbaycanlı ordu sırasına yazılmışdı. Bütövlükdə Azərbaycan üzrə 1941-ci ildə 186,7 min nəfər belə dəstələrin sırasına qoşulmuşdu. 1943-cü il yanvarın 1-dək Azərbaycandan döyüşən hərbi hissələrə göndərilənlərin sayı 464.468 nəfər olmuşdur. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan müharibəyə 600 mindən çox insan getmiş, onların yarıdan çoxu cəbhədə həlak olmuşdur. Respublikada 87 atıcı taboru və 1124 ərazi özünümüdafiə dəstəsi yaradılmışdı. On minlərlə fəhlə, kəndli və ziyalı Azərbaycanda formalaşdırılmış diviziyalara səfərbər edilmişdi.

Qısa müddət ərzində döyüşən hissələr üçün respublikada 15 min tibb bacısı, 750 rabitəçi, 3 min sürücü hazırlanıb cəbhəyə göndərilmişdi.

Azərbaycan döyüşçüləri 77-ci, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaların tərkibində Qafqaz dağlarında, Ukraynada, Pribaltikada və Şərqi Avropa ölkələrində vuruşaraq, faşizm üzərində qələbənin qazanılmasına öz layiqli töhfələrini verdilər. 77-ci diviziya Kerç, Krım uğrunda döyüşlərdə iştirak edərək, 1500 yaşayış məntəqəsini düşməndən azad etmişdir. 416-cı diviziyaya Taqanroq şəhərini düşməndən azad etdiyinə görə 1943-cü il avqustun 30-da "Taqanroq diviziyası" adı verilmişdir. 416-cı diviziya Melitopol, Odessa, Kişinyov şəhərlərinin, Polşa torpaqlarının azad olunmasında iştirak etmiş, Almaniyanın paytaxtı Berlinə daxil olan, Reyxstaqın binasına hücum edən diviziyalar sırasında olmuşdur. 416-cı diviziyanın 8 döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına, 14.369 nəfəri isə müxtəlif orden və medallara layiq görülmüşdür.

223-cü atıcı diviziya Qafqazın 50-dən çox yaşayış məntəqəsini düşməndən azad etmiş, Yuqoslaviyanın paytaxtı Belqrad şəhərinin azad olunmasında fərqlənmişdir.

### *Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları*

Azərbaycan xalqının qəhrəman oğulları Həzi Aslanov, Ziya Bünyadov, Məlik Məhərrəmov, Qafur Məmmədov, Hüseynbala Əliyev, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Gəray Əsədov, Akim Abbasov və başqaları II Dünya müharibəsi illərində unudulmaz qəhrəmanlıqlar göstərmişlər. Onlar Moskva və Stalinqrad, Krım və Qafqaz, Kiyev və Smolensk ətrafında gedən döyüşlərdə vuruşaraq respublikamızın şərəfini qorumuşlar.

Hələ müharibənin ilk ilində Moskva ətrafında gedən döyüşlər zamanı fədakar Azərbaycan oğlu İsrafil Məmmədov Novqorod vilayətinin Nustinko kəndi yaxınlığında kiçik bir dəstə ilə hitlerçilərin bir taborunun hücumunun qarşısını almış, 300 nəfərdən artıq faşisti məhv etmişdi. Stalinqrad döyüşlərində Həzi Aslanovun tank alayı düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini və eyni zamanda, 2 min nəfərədək zabit və əsgərini məhv etmiş, 13 tankını və 175 avtomaşınını ələ keçirmiş, 700 nəfəri əsir götürmüşdü. 1942-ci ilin dekabr döyüşlərinə görə alayın 100-dən artıq döyüşçüsü orden və medallarla təltif olunmuşdur. Həzi Aslanova isə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Tank qoşunları general-mayoru Həzi Aslanov yeganə azərbaycanlıdır ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

1944-cü ildə gedən döyüşlər zamanı Gəray Əsədov xalqımızın adını bir daha yüksəltdi. O öz sinəsi ilə düşmən pulemyotunu susduraraq yoldaşlarının hücumunu təmin etmişdi.

Müharibənin ilk günlərindən Azərbaycanın şahinləri faşistlərə qarşı mərdliklə vuruşurdular. 13 iyul 1941-ci ildə Leninqrad səmasının keşiyində leytenant Hüseynbala Əliyev dörd faşist təyyarəsini vurduqdan sonra özü 17 yara alsa da, təyyarəsini yerə endirə bilmişdi. Təyyarəçi Yusif Quliyev özünü qorxmaz səma döyüşçüsü kimi göstərmiş, dörd faşist təyyarəsi ilə döyüşə girərək, ikisini məhv etmiş, qalan ikisini isə qaçmağa məcbur etmişdi.

Azərbaycanlı döyüşçülər Avropa ölkələrində antifaşist azadlıq hərəkatında da qəhrəmancasına vuruşurdular. Adriatik dənizi sahillərində "Mixaylo" ləqəbli qorxmaz, fədakar azərbaycanlı balası Mehdi Hüseynzadənin partizanlar arasında göstərdiyi qəhrəmanlıqların sorağı hər yerə yayılmışdı. Qəhrəmancasına həlak olmuş Mehdi Hüseynzadəyə müharibədən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

II Dünya müharibəsi illərində 123 nəfər Azərbaycan vətəndaşı göstərdikləri şəxsi igidliklərə və şücaətlərə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 34 nəfər isə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.

Sovet İttifaqı Qəhrəmanlarından 43 nəfəri milliyyətcə azərbaycanlıdır. Onlardan biri olan Məlik Məlik oğlu Məhərrəmov 1943-cü ildə öz bölüyü ilə Dnepr çayını birinci keçərək qarşıya qoyulmuş döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun həyat yolu və cəbhə qəhrəmanlıqları haqqında Abdulla Qurbaninin "Fırtınalar qoynunda" sənədli povestində ətraflı məlumat verilmişdir.

1941-1945-ci illərdə bütün SSRİ-dən cəmi 44 tibb işçisi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür ki, onların da 2-si Azərbaycan xalqının nümayəndəsidir. Müharibə illərində Azərbaycanın paytaxtı Bakı da düşmənin hava hücumlarına məruz qalmışdır. 1942-ci ildə alman təyyarələri Bakı səmasına 71 dəfə, 1943-cü ildə isə 3 dəfə hücum etmişlər. Bu hücumlar zamanı 96 düşmən təyyarəsi vurulmuşdur.

### *Azərbaycan II Dünya müharibəsi illərində*

Cəbhəni silah və sursatla, ərzaqla, geyimlə təmin etmək üçün müharibə illərində bütün Azərbaycan iqtisadiyyatı səfərbər olunmuşdu. Sovetlər birliyinin əsas neft bazası olan Azərbaycan müharibənin əvvəllərində SSRİ-də istehsal olunan neftin 70 faizindən çoxunu verirdi. Müharibə illərində neftçilərimiz cəbhəyə 75 milyon tona qədər neft, 22 milyon ton benzin, digər neft məhsulları göndərmişlər. Cəbhəyə göndərilən yüksək oktanlı təyyarə benzininin 85-90 faizi Bakıda istehsal olunurdu.

Neftayırma, neft-kimya və kimya sənayesində 1941-ci ilin axırında respublika üzrə bütün işçilərin 31 faizini, 1942-ci ildə 38 faizini, 1943-cü ildə 50 faizini, 1944-cü ildə isə 60 faizini qadınlar təşkil edirdilər. Beləliklə, xalq təsərrüfatının ayrı-ayrı sahələrində ən mürəkkəb məsələ - cəbhəyə getmiş kişilərin əvəz edilməsi məsələsi vaxtında həll edildi.

Səfərbərlik nəticəsində orduya çağırılmış yüksək ixtisaslı kadrların, ümumiyyətlə, işçi qüvvəsinin az olması qoyulan vəzifələrin yerinə yetirilməsini daha da çətinləşdirirdi. 1942-ci ilin fevral-mart aylarında neftayırma və kimya sənayesi üçün cəbhədən 5175 nəfər ixtisaslı fəhlə və mütəxəssis geriyə, respublikaya çağırılmışdı. Eyni zamanda, müharibədə əlil olanlar istehsalata, öz köhnə iş yerlərinə qayıdırdılar. 1941-42-ci illərdə 6304 nəfər, ümumiyyətlə, müharibə dövründə isə 36000 nəfər döyüşlərdə əlil olduqdan sonra istehsalata qayıtmışdı. Respublika zəhmətkeşləri qələbə naminə gündəlik normativləri yerinə yetirmədən evlərinə getmirdilər.

1942-ci ilin ikinci yarısında Azərbaycanda, əsasən Bakıda 130 növ silah, sursat və hərbi texnika buraxılırdı. Bakı zavodlarında "Katyuşa" reaktiv artilleriya qurğusu yığılırdı. Yerli sənaye müəssisələri az bir vaxtda müdafiə sənayesi profilində işləməyə keçmişdi. Müharibənin ilk iki ilində yüngül sənaye işçiləri döyüşçülər üçün artıq 30 növ məhsul buraxmağa başlamışdı.

Azərbaycanda 70-dən çox hərbi hospital təşkil olunmuşdu və bu hospitallarda 441.017 nəfər yaralı müalicə olunmuşdu. Azərbaycan dəmiryolçuları müharibə illərində cəbhəyə 1 milyon 300 min vaqon və 600 min sistern, Xəzər dənizçiləri isə 20 milyon ton hərbi və xalq təsərrüfatı yükləri daşımışlar.

Alimlərin, mühəndis-texniki, kənd təsərrüfatı mütəxəssislərinin yaradıcı gücü ordunun silah və sursatla təmin olunması, yerli resurslar hesabına sənaye və kənd təsərrüfatı məhsullarının artırılması işinə yönəldilmişdi. Görkəmli Azərbaycan alimi Yusif Məmmədəliyevin başçılığı altında kimyaçı alimlər 28 gün fasiləsiz işləyərək, yüksək keyfiyyətli aviasiya benzininin texnologiyasını hazırladılar. Ümumiyyətlə, Azərbaycan kimyaçıları müharibə illərində 100 növ kimya məhsulu, o cümlədən 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini, 8 adda dizel yağı istehsal etmişlər.

Azərbaycan xalqı 1941-1943-cü illərdə müdafiə fondu üçün 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 311 milyon manat pul toplamış, cəbhəyə 1,6 milyon ədəd müxtəlif əşya və 125 vaqon isti paltar göndərmişdi.

Böyük Vətən müharibəsi iştirakçılarına Azərbaycan dövləti tərəfindən həmişə böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasından olan Böyük Vətən müharibəsi iştirakçılarının "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 fevral 2015-ci il tarixli Sərəncamı buna əyani sübutdur.

Hazırkı dövrdə Azərbaycan xalqı yeni bir düşmənlə Ermənistan Respublikasının işğalçılıq siyasəti ilə üzbəüzdür. Azərbaycan xalqı artıq dördüncü dəfədir ki, ermənilərin işğalçı siyasəti ilə üzləşir. 1905-1911, 1918-1924, 1948-1954, 1988-1994-cü illərdə öz tarixi dədə-baba yurdlarından qovulan azərbaycanlılar erməni daşnaklarının vəhşiliklərindən nicat yolunu Azərbaycan Respublikasında tapdılar.

XX əsrdə erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmır. Növbəti dəfə 1991-1994-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail oldu, Azərbaycan Respublikasının Qarabağ Muxtar Vilayəti və ona bitişik 7 inzibati rayon işğal edildi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dünya miqyasında apardığı məqsədyönlü siyasət və qayğı nəticəsində Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksək səviyyəyə çatdırılıb, ordumuz yeni müasir döyüş texnikası və silah-sursatla daim təchiz edilir. Artıq Azərbaycan Ordusu döyüş mövqeyində öz sözünü düşmənə diktə edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində hərbçilərlə keçirdiyi görüşdə demişdir: "Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir".

Dövlət başçısı onu da vurğulayıb ki, Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir".

Azərbaycan Ordusunun cəsur əsgərləri təlimlərdə, döyüş hazırlığı və ictimai-siyasi hazırlıq dərslərində hərb işini daha da vicdanla öyrənməlidir. Babalarımızın Böyük Vətən müharibəsində, atalarımızın Qarabağ savaşında, qardaşlarımızın Aprel döyüşlərində və Naxçıvan əməliyyatında göstərdikləri qəhrəmanlıqları özlərinə örnək bilməlidirlər. Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması üçün aparılacaq döyüşlərdə onların bu igidliklərini təkrar etməyə hər an hazır olmalıyıq, çünki biz Koroğlu, Babək, Cavanşir, Şah İsmail Xətai, Həzi Aslanov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov, Murad Mirzəyev və Çingiz Qurbanov kimi Azərbaycan qəhrəmanlarının həmvətənləriyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Ovqat*

# Ömrümüzün bayrağıdı Ana, Vətən kəlmələri...



Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz bilirlər ki, Xətainin qılıncının qüdrəti dünyanı heyrətləndirmişdi. Şeirin aşıladığı mətləb daha həssaslıqla qavranılır, gərəkli şeirin gərəkli mətləbi düşüncələrə daha həssaslıqla hopur; xalq şairi Məmməd Arazın

*Xətainin qılıncını suvardım,*
*Məmməd Araz karandaşı göyərdi -*

misralarını şeirsevərlər heyrət kəlamı kimi oxumuşdular, oxuyurlar, oxuyacaqlar. Söz. Bu anlamda şeir həm tarixdi, həm də tarixi yaşatmağa qadir olan sözdü; Xətainin qılıncının qüdrətini neçə altı əsrlər həm tarix yaşadacaq, həm də söz, şeir...

Sözü sözdən seçməyi bacaranlar bilirlər ki, sözün də işığı var. İşıqlı fikir ifadəsi bununla bağlıdır. Söz müqəddəs niyyətlə səsləndiriləndə bu işıq müqəddəsliyi ifadə edir. Bu işığı duyanlar, ürəyinin gözüylə görənlər əmin olur ki, başəriyyətin başlanğıcından gələn sözün nə özünün, nə də işığının sonu yoxdu. Ayrılıqda da, özünə yaraşan sözə söykənəndə də, bu söykənişlə gərəkli mətləb bildirəndə də belə qüdrətə malik olan söz eşidənə könül xoşluğu verir. Ön xətdə, səngərlərdə əsgərlərimiz mənə də, həmkarlarıma da dəfələrlə belə könül xoşluğu yaşadıblar.

Yenə səngərdən uzaqlaşmamış dönüb arxaya baxdım. Əsgərlərdən eşitdiyim işıqlı fikirlər düşüncələrimin səyyarəsinə dönmüşdü. Səngərdə əsgərlərimizin Vətənə, dövlətçiliyə, Hərbi anda sədaqətini indi də görmüşdüm. Onu da duymuşdum ki, əsgərlərimiz bu işığı ruhumuzun işığının zərrəsi bilirlər.

Bu gün də şeiriyyətlə bağlı əsgər sözü çəmən-çəmən yaşıllaşan təbiəti misra-misra gözəlləşdirə-gözəlləşdirə könlümüzə süzülmüşdü, şeirli anlar dünyanın bu səmtini bir kəlmələşmə qədərincə də ecazkarlaşdırmışdı.

Şəhidlikdən, şəhidlərdən danışmışdıq. Sözarası "Şəhidlik ölməzliyin, ölümsüzlüyün fəlsəfəsidi..." demişdim. Araya çökən üzücü sükutu əsgər İsmayıl Bayramov pozmuşdu:

- Vətəni hamı sevir. Bu sevgilər bir-birinə oxşasa da, bir-birinin eyni deyil. Əsgərin Vətən sevgisi yeniyetmələrin, çağırışçıların Vətən sevgisindən daha qətiyyətli olur.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunu əsgər Rahib Eyvazov əsgər yoldaşının fikrini duyğusallıqla tamamlamışdı:

- Son nəfəsi Vətənə aid olanların Vətən sevgisi hamının Vətən sevgisindən, bütün sevgilərdən üstün sevgidi.

- Bu şeir Üzeyir Hacıbəyova ithaf olunsa da, onun bütün şəhidlərə yazıldığını düşünürük. Mən də, əsgər yoldaşlarım da.

Bir daha əmin oldum ki, müharibə şəraitində döyüş növbətçiliyini məsuliyyətlə aparan Azərbaycan əsgəri həm də gözəl düşünür. Döyüş növbətçiliyi də Vətən üçündü, belə düşüncələr də.

Zabit Nurlan Muradov qətiyyətlə dedi:

- Nümunəvi əsgər zabitlərin də, əsgər yoldaşlarının da ehtiramıyla əhatələnir. Qürurlanıram ki, ordumuzun əsgərləri belə əsgərlərdi. Söhbətlərimizdə öyrənmişəm ki, onlar asudə vaxtlarında müxtəlif mövzularda söhbətləşirlər, Anamız Vətəndən danışırlar, şəhidlikdən, şəhidlərimizdən, Ali Baş Komandanın döyüş əmriylə döyüşəcəklərindən, torpaqlarımızı işğaldan azad edəcəklərindən danışırlar. Belə söhbətlərin birində "Vətəni necə sevməliyik?" sualı ətrafında gərəkli bir müzakirə aparıblar. Vəlinin dedikləriylə hamısı razılaşıb: Vətəni anamız kimi sevməliyik...

Səngərdən uzaqlaşmamış bu fikir düşüncələrimin yolgöstərəninə dönür: Vətəni anamız kimi sevməliyik. Bayaq səngərdə "Söz müqəddəs niyyətlə səsləndiriləndə bu işıq müqəddəsliyi ifadə edir" deyildi. Hamımızın baxışları döyüş növbətçiliyi aparan əsgərlərə sarı yönəldi. Bu baxışlarda qədərsiz inam, dönməz əminlik, bir də incə bir həsəd vardı. Düşüncələrimi tarıma çəkən fikir ürəyimi rəhmsizcəsinə döyəclədi. Vətəni ana kimi sevməyin gərəkliyi fikrinin poetikasının cazibəsindən çıxmaq, nəsə demək, nəsə eşitmək mümkünsüzüydü. Ötən ilin payızında ön xətdə, səngərdə keçirilən oxucu konfransında əsgərlər "Azərbaycan Ordusu"na xitabən könlümüz şeir də istəyir demişdilər. O istəyin cazibəsində bunca gözəl, bunca gərəkli, bunca müqəddəs bir fikri şeirləşdirməyi özümə mənəvi borc bildim:

*Düşüncədən düşüncəyə*
*köçürəydik*
*Tarixlərdən boy göstərib*
*nurtək bitən kəlmələri.*
*Günümüzün çırağıdı,*
*Ömrümüzün bayrağıdı*
*Ana, Vətən kəlmələri...*

Misralar həm maraqla dinlənildi, həm də gözəl bir mətləblə bağlı fikir demək üçün əhəmiyyətli başlanğıc oldu. Deyildi ki, müharibədə əsgərin döyüş əzmini, qələbə ruhunu ifadə edən şeir də döyüşür.

- Şeirin başlanğıcı olan laylalarla boy atırıq, bayatıların hikmətiylə yaşa doluruq, - deyildi.

- Laylalar da, bayatılar da xalqımızın ruhuyla yaşıddı, - deyildi.

- Ona görə laylalar da müqəddəsdi, bayatılar da, - deyildi...

Müqəddəsliyə ad olan fikirləri dinlədikcə Mir Cəlalın bir alğışını xatırladım: Tanrı sənə bir bayatı ömrü versin.

Əsgərlərimizə bir bayatı ömrü arzuladım. Onda əsgərlərdən biri əminliklə dedi ki, Azərbaycanımız bayatı ömrü yaşayacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### Rusiya Prezidenti Qələbə paradının vaxtını dəyişib



Rusiya Prezidenti Vladimir Putin Qələbə paradının vaxtını dəyişib.

Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə görüşündə COVID-19 pandemiyası səbəbindən Qələbə paradının 9 mayda keçirilməyəcəyini bildirib. Prezident qeyd edib ki, xəstəliyin yayılması ilə bağlı risk ona bayram hazırlıqları görməyə imkan vermir.

Dövlət başçısının sözlərinə görə, Qələbə paradı və "Ölümsüz polkun" yürüşü də daxil olmaqla, bütün təntənəli tədbirlər 2020-ci ildə daha sonra keçiriləcək.

### Qazaxıstanda “MiQ-31” hərbi təyyarəsi qəzaya uğrayıb



Qazaxıstanın Karaqanda şəhəri yaxınlığında döyüş növbətçiliyinə hazırlıq üzrə planlı uçuş əməliyyatını yerinə yetirərkən "MiQ-31" hərbi hava qüvvələri təyyarəsi qəzaya uğrayıb.

Qazaxıstan Müdafiə Nazirliyinin əmrinə əsasən aviasiya qəzasının araşdırılması üzrə komissiya yaradılıb.

Karaqanda yaxınlığında təyyarənin qəzaya uğraması nəticəsində iki hərbçi xəsarət alıb.

### İranda hərbi parad keçirilib



Ordu günü ilə əlaqədar aprelin 17-də İranın böyük şəhərlərində hərbi parad keçirilib.

Paradda İran ordusunun bioloji və kimyəvi silahdan müdafiə qüvvələrinin texnikası nümayiş etdirilib. Tehranda paraddan sonra bəzi bölmələr birbaşa dezinfeksiya tədbirlərini həyata keçirməyə yola düşüblər.

Hərbi paradda iştirak edən Prezident Həsən Ruhani deyib ki, İran ordusu müharibənin yox, sülhün, əmin-amanlığın simvoludur. Koronavirusla mübarizədə İran ordusu ön sıralarda oldu və xalqın müdafiəsini təmin etdi.

Paradı qəbul edən İranın Müdafiə naziri, general Əmir Xatəmi bildirib ki, ordu daim xalqın yanında olub və onun müdafiəsinə hər zaman hazırdır.

### Qahirədə polislə terrorçular arasında şiddətli atışma olub



Misirin paytaxtı Qahirənin Əl-Əmiriyə məhəlləsində polislə terrorçular arasında şiddətli atışma olub.

Yaşayış binasından ətrafa və polislərə atəş açan silahlıların müqaviməti axşam saatlarına qədər davam edib. Sakinlərə səsgücləndiricilər vasitəsilə evlərindən çıxmamaq barədə çağırış edilib. Əraziyə cəlb olunmuş xüsusi təyinatlı polis dəstəsi terrorçuları mühasirəyə alıb. Silahlıların Qahirənin mərkəzində bombalı terror aktı həyata keçirmək istədikləri bildirilir. Mühasirəyə alınan silahlıların gizləndikləri mənzildə partlayıcı qurğuların da olduğu qeyd edilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# “Kirpi” zirehli avtomobili





Türkiyə istehsalı olan 4x4 təkər formullu "Kirpi" zirehli avtomobili İzmirin VMS şirkətinin mütəxəssisləri tərəfindən hazırlanıb.

Zirehli mühafizə dərəcəsi STANAG 4569 NATO standartına uyğun olduğuna görə avtomobili mina əleyhinə yüksək mühafizəyə malik olan MRAP kateqoriyalı zirehli texnikalar sinfinə aid etmək olar. Zirehin alt hissəsi V formasındadır. "Kirpi" zirehli avtomobili "Cummins" şirkətinin istehsalı olan 350 at gücündə İSK seriyalı turbodizel mühərriki və saatda 100 kilometr olmaqla qalın örtüklü yolda hərəkət etmək üçün "Alisson" avtomat ötürücü sürət qutusu ilə təchiz olunub. Maşının təyinatından və komplektləşdirilməsindən asılı olaraq onun döyüş çəkisi 16 tondur. Heyəti komandir, sürücü və atıcı olmaqla üç nəfərdən ibarətdir. Onun desant bölməsində isə tam təchiz edilmiş piyadaları yerləşdirmək olar. Zirehli avtomobilin uzunluğu 7,075 metr, eni 2,51 metr, hündürlüyü 2,86 metrdir. "Kirpi" zirehli avtomobilinin yanacaq ehtiyatı 310 litr, ehtiyat hərəkəti 800 kilometrdir. Operativ diapazonu saatda 60 kilometr olmaqla 1000 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Mirzəyev Camal Mirəsgər oğluna və əsgər İsmayılov Elşən Arzuman oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

AZƏRBAYCAN ORDUSU

## Ana

Gözümün nuru, canım ana,
Böyütdün sən məni yan-yana.
Odlusan gül kimi, bir qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi,
Əziz ana.

Nə ki arzu kamım var,
Qəlbimdə tutmuş qərar.
And olsun sana, can ana.
Qədrini el bilir, ətrini gül bilir,
Saçının ağına, qarasına qurbanam,
Könlümün o həzin laylasına qurbanam,
Əziz ana.

Beşiyim üstə layla çaldın,
Gecələr sübhədək qadamı aldın.
İsti nəfəsini həmişə yaz bilmişəm,
Olub ki, mən sənin qədrini az bilmişəm,
Əziz ana.

Niyyətin xoşdur, safdır südün,
Qulağımda qalıb hər öyüdün.
Oğluna, qızına ay etibarlı ana,
Nəfəsi gül kimi, qəlbi baharlı ana,
Əziz ana.

## Döyüşçünün xəyalı

Mən indi uzaqda... Cəbhələrdəyəm,
Qarşımda boz otlar, gen səhralar var...
Məni qərq edəndə uçqun xəyallar
Elə zənn edirəm sanki evdəyəm...
Anam xalı salmış, sən çay qoyursan
Çiçəkli eyvana baxır... Baxıram...
Çaydan dəmləyirsən, limon kəsirsən,
Mən isə köksünə bir gül taxıram.
Odlu baxışların çevrilir bəri.
O bir cüt ilahi, mavi gözləri -
Süzürəm... Od tutub alışır könül
Yasəmən kolunda bir sona bülbül -
Oxuyur... Mən isə siyah zülfünü
Sevib oxşayıram sakitanə, lal
Bu zaman bir mərmi düşür yaxına
Məni gül eyvandan ayırır xəyal...
Yenə cəbhə boyu əsir küləklər,
Görürəm kimsəsiz bir səngərdəyəm,
Fikrimi çuğlamış təmiz diləklər
Mənsə uzaqlarda... cəbhələrdəyəm.

## Odlar Vətəni

Könlümün tərlanı qalxmış cövlana,
Çıxmışam qoynunda yenə seyrana,
Eşqin cansızı da gətirir cana
Sevda beşiyində bəslədin məni,
Ey odlar Vətəni, odlar Vətəni!..

Əsir xəfif-xəfif səhər mehləri,
Atır rübəndini qızıl dan yeri.
Sən yar gülşənisən, mən eşq şairi
Şirin laylalarla gəl, oxşa məni,
Ey odlar Vətəni, odlar Vətəni!..

Tərlan səhərlərdə doğulmuşam mən,
Nəcib məhəbbətdən yoğrulmuşam mən,
Cilvəli tovuzam, azad quşam mən,
Uçurt, ərşə qaldır şahintək məni,
Ey odlar Vətəni, odlar Vətəni!..

Vurğunu olmuşam səmimiyyətin,
Zərif rübabıyam pak ülviyyətin,
Sən ey qadir ana, bu xoş niyyətin
Qurub-yaratmağa çağırır məni,
Ey odlar Vətəni, odlar Vətəni!..

Çəkdim keşiyini fırtınalarda,
Fəlakət önündə, ölümdə, darda,
Döndüm pak qoynuna bir ilk baharda
Eşit, candan artıq sevirəm səni,
Ey odlar Vətəni, odlar Vətəni!..

## Qəlbin səsi

Üç illik bir eşqin hicrindəyəm mən,
Çırpınır ürəyim yaralı quş tək.
Sən ey əziz ana, mehriban Vətən,
Bizimdir şərəfli böyük gələcək...
Mərd oğlun silaha sarılmış bu gün
Yarır sərhədləri, yarır bəndləri.
Sənin namusunu qorumaq üçün
Keçir şəhərləri, keçir kəndləri.
Qəm yemə, səndən deyiləm cüda,
Ürəyim bağlıdır sənə əzəldən.
Yolunda canını etsə də fəda,
Oğlun yarağını buraxmaz əldən.

*Könlüm şeir istəyir*

# “Mahnıdır yelkənim əzəldən mənim”

*Poetikasıyla, sözlərin bənzərsiz düzülüşünün musiqiliyiylə fərqləndiyinə, eyni zamanda, məzmunu - mahiyyəti duyğuların nizamına qarışdığına görə lirik şeirlər oxunanda da könüləyatımlı olur, dinləniləndə də. Belə şeirlərə yazılmış musiqi - mahnı neçə on illərdi duyğuların xidmətindədi. Həmişə ilk dinlənilirmiş kimi dinlənilir. "Mahnıdır yelkənim əzəldən mənim" - şair İslam Səfərlinin misrasıdı. Dinləyənlər şairin sözlərinə yazılmış mahnıları duyğularına yelkən bilir...*



**"Azərbaycan Ordusu"**

## Səhər

Baxıb sübhün gül üzünə,
Durub çıxdım mil düzünə.
Gördüm çöllər nemətlidir.
- Var ol! - dedim şən Vətənə.
Yurdum dedi: - Bu təntənə
Övladımın qüdrətidir.
Günəş zərli çələng hördü.
Şair könlüm onu gördü,
Qalxdı bir söz desin ona,
Günəş bu vaxt gülə-gülə
Cavab verdi şadlıq ilə:
- Bu töhfəmdir el oğluna!..
Gəzdim Vətən gülzarını,
Öpüb gülün rüxsarını,
Dedim: - Sənə vurulmuşam.
Gül dedi ki: - Şair oğlan,
Sənə bu şeh damlasından
Bir piyalə doldurmuşam!..
Hara baxdım, əmək coşdu,
Fərəhlənib ürək coşdu.
Dedim: - Alqış el adına!
Gümüş donlu, gen tarlalar
Dedi: - Ölməz eşqimiz var,
Azərbaycan övladına!..

## Bir könül sındırmışam

Mən onu dan ulduzu,
Zərrin şəfəq sanırdım.
Kimə inanmasam da,
Bir ona inanırdım.
O, bir qaranquş kimi
Qəlbimdə yuva qurdu.
Acı dilim qurusun,
Dilim onu uçurtdu.
Saçlarının gül ətri
Titrəyən ovucumda.
Bu intizar gözlərim,
Ağlar yol ayrıcında.
Qəbahətim böyükdür,
Ay ellər, dünən axşam;
Bir ürək sındırmışam,
Bir könül sındırmışam.

## Yaxşı sına

Ömrüm olub yoxşu yarı,
Bundan özgə yox şüarı:
- Yaxşı dostu, yaxşı yarı,
Bərk ayaqda yaxşı sına!

Bir sevdaya düşə könlüm,
Eşq odunda bişə könlüm.
Kaş sınmaya şüşə könlüm,
Sınanda da yaxşı sına!

Ülkər gözlü, nazlı canan,
Qəlb sözümü dinlə bir an:
- İslam deyər, canım qurban
Yaxşı yarın yaxşısına!

## Yadıma düşdün

Dəydi saçlarıma bahar küləyi,
Nazəndə sevgilim, yadıma düşdün.
Hərənin baxtına bir gözəl düşər,
Sən də təkcə mənim adıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Sənsiz dağ döşünə çıxdım bu səhər,
Ötdü qumru kimi gur şəlalələr.
De, niyə yalqızsan, sordu lalələr,
Qövr etdi niskilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Bir müddət dost kimi gəzdik yanaşı,
İncitdim qəlbini, mən oldum naşı.
Sənsiz, ey gözəlim, bağrımın başı
Oldu dilim-dilim, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

Gözlərim yoldadır, qulağım səsdə,
Səni unutmaram mən son nəfəsdə.
Ey ceyran baxışlım, ey boyu bəstə,
Ey təzə-tər gülüm, yadıma düşdün,
Nazəndə sevgilim, yadıma düşdün.

## Nə vaxta qaldı

Gilənar qızardı, ağ tut sovuşdu,
Payını dərmədim, budaqda qaldı.
Hamı könül verib yara qovuşdu,
Bəs bizim toyumuz nə vaxta qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Qönçələr açılıb, gülür çəmən, düz...
Hər axşam tarladan qayıdanda biz,
Yoxsa o "sevirəm" söylədiyin söz
Düşüb mərcan kimi bulaqda qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Göyləri ay gəzir, hava bürkülü,
Eyvanda durmuşam boynu bükülü.
Bəlkə eşqimizin sona bülbülü
Uçub yol üstdəki qovaqda qaldı?..
Ay gözəl, nə vaxta qaldı?

Əzəldən gözəldir boyun, qamətin,
Olsa da qəlbini ovlamaq çətin.
Bil ki, ey gözəl qız, saf məhəbbətin
Ürəkdə yurd salıb, dodaqda qaldı...
Ay gözəl, nə vaxta qaldı?

## Ay qaşı, gözü qara qız

Göy çəməndə ötür turac,
Sübh açılır, gülür yamac.
Başındakı örpəyi aç,
Saçlarını yan dara, qız,
Ay qaşı, gözü qara qız!

Ay nurunu salır kəndə
Biz eyvanda görüşəndə,
Toyumuzdan söz düşəndə
Gəl naz eləmə yara, qız,
Ay qaşı, gözü qara qız!

Bu gün məhsul bayramıdır,
Gözəl payız axşamıdır,
Deyib-gülmək əyyamıdır.
Geyin-keçin al-xara, qız,
Ay qaşı, gözü qara qız!

## Bakı, sabahın xeyir!

Qayıdıb xoş güzərdən,
Günəş qalxır Xəzərdən.
Sevgilim keçən yerdən
Bütün şəhər yeriyir.
Bakı, sabahın xeyir!

Hörükləri qaradır,
Qaşları ayparadır.
O bir aləm yaradır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!

Xumarlanır ləpələr,
Gülür mehriban şəhər,
Sevgilim səhər-səhər
Zər şəfəqdən don geyir.
Bakı, sabahın xeyir!

## Həkim qız

Gülər üzlü həkim qız,
Ey gözləri bənövşə.
Qapımızdan keçəndə
Sarsılıram həmişə.
Başım da ağrımır ki,
Bir yanına gəlim mən.
Geyinib ağ xalatı,
Qəlbimi dinləyəsən.
Günəş kimi təmizdir,
Safdır sənin niyyətin.
Ellərə ömür verir,
Həyat verir sənətin.
Qoy toxunsun sinəmə,
O şəfqətli əllərin.
Ürəyinlə dinlə bir,
Ürəyimin tellərin.
Söylə, intizarını
Nə vaxtadək çəkim qız?
Oxuyuram səninçün
Bu nəğməni, həkim qız!..

## Zərif gülüşlüm

Söylə, ey sevgilim,
Sən tək yar hanı?
Zülfündən tel düzüb
Çaldım kamanı.
Ülkər baxışına,
Xoş yerişinə,
Zərif gülüşünə
Verrəm dünyanı.
Nəğmədir ilhamın,
Yoxdur bir kamın.
Ey şair İslamın
Gözəl cananı.
Mahnıdır yelkənim
Əzəldən mənim.
Gəl sevək Vətənim
Azərbaycanı.

## O, adi bir qız deyil...

Paytaxtıma baxıram,
İşıqdan göz qamaşır.
Bakıya təkcə mənim
Sevdiyim qız yaraşır.
Mən hara gedirəmsə
Gözlərimdə o gülür.
Şirin bir mahnı kimi
Ürəyimə süzülür.
Mən onu görməyəndə
Hər şey gözümdən düşür.
O, şəhərə çıxanda
Şəhər də gözəlləşir.
Yanağının allığı
Min çiçəyin rəngidir.
O, adi bir qız deyil,
Gözəllik çələngidir.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 183
Nüsxə 3900